# Azərbaycanın beynəlxalq müstəvidə əhəmiyyətli rolunun təsdiqi

**Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın paytaxtı Tiranada keçirilən "Avropa Siyasi Birliyi"nin VI Zirvə toplantısında iştirakı ölkəmizin Avropa siyasi arxitekturasına inteqrasiya istiqamətində ardıcıl və strateji xəttinin davamı kimi qiymətləndirilir.**

Bu iştirak həm də Azərbaycanın Avropa ölkələri ilə siyasi, iqtisadi və təhlükəsizlik sahələrində çoxşaxəli əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Rəsmi Bakının bir neçə dəfə bu formatda keçirilən zirvə görüşlərinə ali səviyyədə dəvət olunması ölkəmizin regional və qlobal miqyasda artan siyasi çəkisinin göstəricisidir. Avropa siyasi çevrələri Azərbaycana enerji təchizatçısı, sabitlik, dayanıqlılıq və strateji əməkdaşlıq baxımından etibarlı tərəfdaş kimi baxırlar. Bu, öz növbəsində Azərbaycanın çoxqütblü dünya nizamında balanslı və prinsipial mövqe sərgiləməsi ilə izah olunur.

**(davamı 8-ci səhifədə)**





# Azərbaycanın beynəlxalq müstəvidə əhəmiyyətli rolunun təsdiqi

(əvvəli 1-ci səhifədə)

Azərbaycan son illər enerji, nəqliyyat-kommunikasiya, iqlim dəyişmələri və humanitar məsələləri əhatə edən mürəkkəb qlobal gündəmlər çərçivəsində konkret fəaliyyət strategiyaları təqdim edən azsaylı ölkələrdən biridir. Ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rol xüsusilə fərqlənir. Belə ki, Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarlarına alternativ və etibarlı enerji məhsullarının çatdırılması dövlətimizin iqtisadi gücünə çevrilmişdir. Tiranadakı Zirvə görüşü də bu baxımdan rəsmi Bakının təşəbbüskarlığını bir daha ortaya qoydu.

"Avropa Siyasi Birliyi" platforması Avropa İttifaqına üzv və qeyri-üzv ölkələr arasında siyasi dialoqun, qarşılıqlı anlaşma mühitinin gücləndirilməsi məqsədi daşıyır. Azərbaycan isə bu platformada iştirak etməklə söz sahibi mövqeyini diktə edən ölkə statusunu gücləndirir. Xüsusilə 2022-ci ildə keçirilmiş Praqa Zirvəsi Azərbaycanın diplomatiya tarixində dönüş nöqtəsi kimi yadda qaldı. Həmin zirvədə ölkəmizin ərazi bütövlüyü ilk dəfə olaraq həm Ermənistan, həm də Fransa tərəfindən tanındı. Bu fakt hüquqi və beynəlxalq münasibətlər kontekstində əhəmiyyətli presedent yaratdı. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası fonunda bu kimi yüksək səviyyəli beynəlxalq platformalarda iştirak ölkəmizin regional gücdən qlobal təsirə malik aktora çevrildiyini sübut edir. Bu gün respublikamız təkcə Cənubi Qafqazın lideri deyil, eyni zamanda Xəzər regionunda, Avropa-Asiya enerji və nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən strateji mərkəzdir. Belə mövqenin formalaşması isə düşünülmüş, ardıcıl və uzaqgörən dövlət siyasətinin nəticəsidir.

Tirana dəvəti faktiki olaraq sübut etdi ki, baxmayaraq ki, Avropa İttifaqının bəzi təsisatlarında qərəzli mövqe hələ də qalmaqdadır, bütövlükdə regionda real güc balansına, praqmatik tərəfdaşlığa və enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın əvəzolunmaz roluna əsaslanan yeni yanaşmanı qəbul etməyə başlayıb. Rəsmi Brüsselin və digər Avropa ölkələrinin sabitlik, təhlükəsizlik və enerji təchizatı məsələlərinin həllində Bakı ilə əməkdaşlığı zərurətə çevrilib. Azərbaycanın bu mövqeyə yüksəlməsi onun çoxvektorlu, milli maraqlara söykənən və praqmatik xarici siyasət kursunun uğurlu nəticəsidir. Tirana Sammiti zamanı Avropa İttifaqı Şurasının sədri Antonio Koşta, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen, eləcə də Böyük Britaniya, Albaniya, Macarıstan, Slovakiya, Çexiya kimi ölkələrin liderlərinin Prezident İlham Əliyevlə görüşləri formal münasibətlərin ifadəsi, eyni zamanda Avropa siyasi elitasının rəsmi Bakını regionda və daha geniş coğrafiyada sabitləşdirici aktor kimi qəbul etdiyini göstərir. Fransadan Ermənistana qədər bir çox dövlət başçılarının Azərbaycan Prezidenti ilə görüşmək istəyi də yeni bir reallığı ortaya çıxarır. Azərbaycan artıq siyasi dialoqun obyektindən subyektinə, regional proseslərin istiqamətverici qüvvəsinə çevrilmişdir. Bu isə yalnız hərbi və iqtisadi güclə deyil, həm də diplomatik manevr qabiliyyəti, prinsipial mövqe və ədalətə əsaslanan yanaşma ilə təmin olunmuşdur. Prezident İlham Əliyevin vasitəçilik missiyalarına etimadla yanaşılması, dövlət başçısının Cənubi Qafqazda və daha geniş Avrasiya məkanında sülh və əməkdaşlıq çağırışlarının təşəbbüskarı kimi qəbul edilməsi təsadüfi deyil. rəsmi Bakı Ermənistanla sülh gündəmini irəli aparmaqda, həm də digər regionlar üzrə beynəlxalq dialoqun təşviqində fəal mövqedədir.

Tiranada keçirilən VI Zirvə toplantısı bir daha sübut etdi ki, "Avropa Siyasi Birliyi" (ASB) yeni geosiyasi reallıqlar fonunda ortaq çağırışlara cavab vermək üçün çevik siyasi koordinasiya və dialoq mexanizminə çevrilir. Qitənin təhlükəsizlik, sabitlik və davamlı inkişaf məqsədlərinə uyğun olaraq təşəkkül tapan birlik iştirakçı ölkələr arasında qarşılıqlı maraqlar əsasında dərinləşən əməkdaşlığı təşviq edir. Zirvə çərçivəsində aparılan müzakirələr bir daha göstərdi ki, Avropa İttifaqı regionlararası yaxınlaşmaya, xüsusilə də Cənubi Qafqazda sabitlik və inkişafın təmin edilməsinə ciddi maraq göstərir. Bu baxımdan, Azərbaycan kimi regional liderin prosesə daxil olması və aktiv mövqe sərgiləməsi ASB-nin uğurlu gələcəyi üçün vacib şərtlərdən biri hesab olunur. Rəsmi Bakının təşəbbüskar və məsuliyyətli tərəfdaş mövqeyi onu Avropa siyasi məkanında aparıcı aktorlardan birinə çevirir. Tiranada keçirilən görüş, həmçinin son illər bəzi dairələr tərəfindən məqsədli şəkildə yayılan iddiaların, yəni Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında münasibətlərin durğunluğa uğraması fikrinin əsassız olduğunu göstərdi. Sammit çərçivəsində aparılan çoxsaylı yüksək səviyyəli görüşlər, ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi və konstruktiv atmosfer tərəflər arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə daxil olduğunu sübut edir. Bununla belə, prosesin hazırkı müsbət trayektoriyasını daha yaxşı başa düşmək üçün onun fonunda yer alan tarixi və siyasi dinamikanı da nəzərə almaq zəruridir. Aİ-nin əvvəlki rəhbərliyinin, eləcə də bəzi Qərb institutlarının Azərbaycana münasibətdə qeyri-obyektiv və qərəzli yanaşmaları uzun müddət əməkdaşlığın dərinləşməsinə əngəl törədib. Məsələn, ABŞ-ın əvvəlki prezidenti Cozef Baydenin dövründə ermənipərəst və birtərəfli siyasət Vaşinqtonla Bakı arasında münasibətlərdə müəyyən gərginliklərə səbəb olub. Lakin son siyasi dəyişikliklər, xüsusilə də Donald Trampın yenidən hakimiyyətə gəlməsi ilə bu münasibətlərdə yeni səhifə açıldı. Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu bu baxımdan diqqətəlayiqdir. Məktubda ABŞ lideri Azərbaycanın İsrailə olan dəstəyini, regional sabitliyə töhfələrini yüksək qiymətləndirərək Bakı ilə əməkdaşlığın daha da genişləndirilməsinə maraqlı olduqlarını bildirib. Bu, siyasi konfiqurasiyada Azərbaycanın ABŞ üçün strateji əhəmiyyət daşıyan tərəfdaş olduğunu açıq şəkildə nümayiş etdirir. Təbii ki, bu müsbət tendensiyalar təkcə Qərbin mövqeyindəki dəyişikliklərlə izah olunmur. Azərbaycanın xarici siyasəti, regional sülh və sabitlik gündəminə verdiyi real töhfələr, qlobal məsələlərdə tutduğu ədalətli mövqe və sabit tərəfdaş obrazı beynəlxalq nüfuzunun yüksəlməsində əsas faktorlardır.

Xatırladaq ki, uzun müddət Avropa İttifaqının əvvəlki rəhbərliyi tərəfindən Azərbaycana qarşı qeyri-obyektiv yanaşmalar özünü büruzə verirdi. Bu siyasət birtərəfli qətnamələr, Ermənistanın mövqeyinə uyğun rəsmi sənədlər və Azərbaycanın legitim hüquqlarını nəzərə almayan açıqlamalarla müşayiət olunurdu. Lakin son iki il ərzində yaranmış geosiyasi zərurətlər və Aİ-nin yeni idarəetmə strukturunda formalaşan siyasi realizm anlayışı Azərbaycanın regional sabitlikdə oynadığı rolu daha obyektiv qiymətləndirməyə sövq edib. Şübhəsiz, Azərbaycanla Aİ arasında münasibətlərin bugünkü normal məcraya dönməsi, əslində siyasi iradə və prinsipial mövqeyin nəticəsidir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, tərəflər arasında yaşanmış gərginlik və anlaşılmazlıqların başlıca səbəbkarı məhz Aİ idi. Ermənistanın bu təşkilatla münasibətlərində regionda ayırıcı xətlərin çəkilməsinə və birtərəfli yanaşmaların gücləndirilməsinə yönəlmiş cəhdləri müəyyən dairələr tərəfindən dəstəklənsə də Prezident İlham Əliyevin qətiyyətli xarici siyasət kursu bu təşəbbüslərin qarşısını almaqda həlledici rol oynadı. Azərbaycanın regional inteqrasiya və dialoq prinsiplərinə əsaslanan siyasəti ölkəmizin nəinki Aİ ilə, həm də qonşu dövlətlərlə münasibətlərində sabitləşdirici amilə çevrildi. Bu mənzərə Aİ-Azərbaycan münasibətlərində yeni bir dövrün başlandığını göstərir. Artıq Avropa anlayır ki, Cənubi Qafqazda etibarlı tərəfdaş axtarışı fonunda Azərbaycanın alternativi yoxdur. Tiranada keçirilən "Avropa Siyasi Birliyi"nin VI Zirvə Toplantısı bir tərəfdən qitənin geosiyasi gələcəyi ilə bağlı strateji konturların müəyyənləşdirilməsi, digər tərəfdən isə Aİ-nin öz inteqrasiya modelini ətraf ölkələrlə əməkdaşlıq çərçivəsində necə yenidən qurmaq niyyətini nümayiş etdirdi.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**